*ELMİ TƏDQİQAT Beynəlxalq Elmi Jurnal.* İyun 2026, Cild: 6, Sayı: 6, s. 159–163
*SCIENTIFIC RESEARCH International Scientific Journal.* June 2026, Volume: 6, Issue: 6, pp. 159–163
DOI: https://doi.org/10.36719/2789-6919/60/159-163

# Azərbaycanda animasiya sənətinin yaranması və inkişafi

**Samid Qarayev**

***Xülasə.*** *Azərbaycan Respublikasında animasiya sektorunun formalaşması və təkmilləşməsi milli kino sənətinin ən strateji və əhəmiyyətli istiqamətlərindən biri hesab edilir. Bu sektorun tarixi təkamülü dövründə araya-ərsəyə gətirilmiş animasiya nümunələri həm mövzu rəngarəngliyi, həm də bədii ifadə vasitələrinin zənginliyi istiqamətindən mütəxəssislərin diqqətini cəlb etmişdir. Keçilən tarixi yol göstərir ki, milli animasiya filmləri zəngin Azərbaycan mədəniyyətinin, şifahi xalq ədəbiyyatının və folklor ənənələrinin ekran dilinə daşınmasında, eləcə də gənc nəslə ötürülməsində əvəzsiz rol oynamışdır. Animasiya sahəsinin inkişafında və beynəlxalq arenaya çıxmasında rejissor, rəssam və ssenaristlərin fərdi yaradıcılıq bacarıqları, vizual təfəkkürü özünəməxsus yer tutmuşdur. Dövrün texniki tərəqqisi ilə ayaqlaşan innovativ və estetik metodların tətbiqi bu sektorun həm kəmiyyət, həm də keyfiyyət baxımından təkmilləşməsinə güclü təkan vermişdir.*
*Mövzunun kompleks şəkildə araşdırılması zamanı yerli animasiya filmlərinin estetik xarakteristikaları, ideoloji-tərbiyəvi funksiyaları və milli-mənəvi dəyərlərin gələcək nəsillərə aşılanmasındakı missiyası dərindən təhlil olunmuşdur. Tədqiqat nəticəsində müəyyənləşdirilmişdir ki, animasiya sektoru sadəcə vizual əyləncə vasitəsi deyil, o cümlədən cəmiyyətin tarixi-mədəni yaddaşının müdafiə olunmasına və milli kimliyin qorunmasına xidmət göstərən əhəmiyyətli bir sənət bölməsidir. Azərbaycanda animasiyanın tarixi təkamül mərhələləri milli kinonun ümumi inkişaf xətti ilə tam inteqrasiyalı şəkildə formalaşmış, zamanın ideoloji tələblərinə və bədii cərəyanlarına uyğun olaraq respublikanın mədəni kontekstində özünəməxsus fundamental yer almışdır. Bu baxımdan, sahənin multidissiplinar kontekstdə öyrənilməsi müasir ekran sənətinin perspektivlərini anlamaq üçün böyük aktuallıq kəsb edir.*

***Açar sözlər:*** *animasiya, animasiya sənəti, milli kino, filmlər, mədəniyyət, estetik xarakteristika, mədəni yaddaş*

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: samidgarayev@gmail.com
Daxil oldu: 2 Mart 2026; Qəbul edildi: 5 İyun 2026; Onlayn dərc edildi: 30 İyun 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BYNC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# The Emergency and Development of Animation Art in Azerbaijan

**Samid Garayev**

***Abstract.*** *The animation samples produced throughout the historical evolution of this sector have attracted the attention of specialists, both in terms of thematic diversity and the richness of artistic expression. The historical path traversed demonstrates that national animated films have played an invaluable role in translating the rich Azerbaijani culture and folklore traditions into the language of the screen, as well as transmitting them to the younger generation. The individual creative skills have held a unique place in the development of the animation field and its entry into the international*

*arena. The application of innovative and aesthetic methods keeping pace with the technical progress of the era has given a strong impetus to the improvement of this sector in terms of both quantities. The research concludes that the animation sector is not merely a means of visual entertainment, but also an important branch of art that serves to protect the historical-cultural memory of society. The evolution of animation in Azerbaijan have formed in full integration with the general developmental trajectory of national cinema, fundamental place in the country's cultural context in accordance with the ideological demands.*

***Keywords***: *animation, animation art, national cinema, films, culture, aesthetic characteristic, cultural memory*

---

Azerbaijan State University of Culture and Arts, Master's student, Baku, Azerbaijan
E-mail: samidgarayev@gmail.com
Received: 2 March 2026; Accepted: 5 June 2026; Published online: 30 June 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

Azərbaycan Respublikasında animasiya filminin tarixi XX yüzilliyin 30-cu illərinin başlanğıclarına təsadüf edir. Bu sahədə ilk addım 1931-ci ildə çəkilmiş "Uçuş" adlı sənədli filmlə atılmışdır. Həmin sənədli filmdə ilk dəfə olaraq texniki animasiyadan istifadə edilmişdir və Bakıdan Moskvaya, o cümlədən digər ərazilərə uçan təyyarənin hərəkət istiqaməti xəritə üzərində təsvir olunmuşdur. Artıq 1933-cü ildən başlayaraq bir çox sənədli filmlərdə texniki animasiya metodlarına daha geniş və ətraflı formada müraciət edilməyə başlanılmışdır (Filimonova, 2011).

"Repertuarnyi ukazatel': Kinorepertuar" sorğu kitabçasında "Cat" adlı təlimat xarakterli film barəsində məlumat mövcuddur. "Cat" Amerika istehsalı olan bir mexanizmin adıdır və hələ 1930-cu illərin əvvəllərində Abşeron yarımadasındakı neft mədənlərinin sıxılmış hava və ya qazla vaxtaşırı istismarı (kompressor üsulu) zamanı bu mexanizmdən geniş istifadə olunub. Mexanizmin iş prinsipini əyani şəkildə nümayiş etdirmək üçün kinematoqrafçılar bu filmdə texniki animasiyadan istifadə etmişlər. Bununla yanaşı, 1933-cü ildə lentə alınmış "Lökbatan" və "Neft simfoniyası" sənədli filmlərində də texniki animasiyanın imkanlarından yararlanılmışdır. İlk bədii animasiya filmi olan "Abbasın bədbəxtliyi" isə 1935-ci ildə istehsal edilmişdir.

## Metodlar

Azərbaycan animasiya sənətinin yaranması və inkişafı ölkənin mədəni-estetik düşüncə sistemində vizual sənətlərin formalaşması ilə sıx bağlıdır. XX əsrin ortalarından etibarən kinomatoqrafiyanın inkişafı animasiya yaradıcılığı üçün yeni imkanlar yaratmış, bu sahə tədricən özünün bədii və texniki xüsusiyyətlərini formalaşdırmağa başlamışdır. İlk dövrlərdə animasiya daha çox maarifləndirici və ideoloji məqsədlərə xidmət etsə də, zamanla onun ifadə vasitələri genişlənmiş, milli folklor, ədəbiyyat və təsviri sənət elementləri ilə zənginləşmişdir. Bu proses Azərbaycan animasiyasının həm məzmun, həm də forma baxımından özünəməxsus bir istiqamətdə inkişafına zəmin yaratmışdır.

Mövzunun aktuallığı Azərbaycan Respublikasında animasiya sektorunun keçdiyi tarixi təkamül mərhələlərinin, yaradıcı aspektlərinin və müasir tendensiyalarının planlı formada araşdırılması zərurətindən qaynaqlanır. Müasir zamanda rəqəmsal texnologiyaların dinamik inkişafı animasiya sektorunun yeni dövrə keçidini təmin etmiş, bu da onun estetik və funksional potensillarını daha da genişləndirmişdir. Bunun üçün də, Azərbaycan animasiyasının formalaşma mərhələləri və inkişaf dinamikasının elmi əsaslarla analizi, milli mədəni irsin qorunması və gələcək təkamülləşmə

perspektivlərinin müəyyənləşdirilməsi aspektindən xüsusi əhəmiyyət daşıyır (Həsənov, 2015). Texniki və müəyyən qədər bədii animasiya materiallarından dünya müharibəsindən sonrakı zamanlarda da onlarla rəsmi sənədli və elmi-kütləvi, o cümlədən bədii filmlərin (məs: “Bir qalanın sirri” və s.) lentə alınmasında yeri gəldikcə istifadə edilmişdir (Ravkin, 1989).

## Nəticələr

Azərbaycan milli animasiya sənətinin tarixində XX əsrin 60-cı illərinin ikinci yarısı fundamental bir dönüş nöqtəsi kimi qəbul edilir. 1930-cu illərdə atılan ilkin təcrübi addımlardan və müharibə dövrünün gətirdiyi uzunmüddətli fasilədən sonra, respublikada cizgi filmlərinin davamlı istehsal bazasını yaratmaq zərurəti meydana çıxmışdı.

Bu istiqamətdə ən mühüm infrastruktur addımı 1965-ci ildə reallaşdı. Həmin il Cəfər Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyası özünün geniş texnoloji imkanlara malik olan yeni və müasir binasına köçürüldü. Yeni binanın istifadəyə verilməsi tək bədii və sənədli filmlərin deyil, həm də unudulmaqda olan multiplikasiya sənətinin bərpası üçün zəmin hazırladı. Köçürülmədən təxminən iki-üç il sonra, studiyanın rəhbərliyi tərəfindən animasiya filmləri sexinin rəsmi olaraq bərpa edilməsi və texniki avadanlıqlarla təchiz olunması prosesinə start verildi (Aleksandrova, 2002).

1960-cı illərin sonlarında “Azərbaycanfilm” kinostudiyasında animasiya sexinin bərpa edilməsi yolunda ən ciddi fundamental maneə kadr çatışmazlığı və kəskin peşəkar multiplikator qıtlığı ilə bağlı idi. Studiyanın yeni və müasir texniki avadanlıqlarla təmin olunmasına baxmayaraq, yerli rəssamların mövcud vizual təfəkkürü, rəsm vərdişləri və bədii yanaşmaları yeni dövrün tələb etdiyi mürəkkəb cizgi texnikası, faza hərəkətləri və xüsusi kino-kamera manipulyasiyaları ilə uzlaşmırdı. Klassik rəssamlıqdan fərqli olaraq, animasiya sənəti hərəkətin zaman daxilində parçalanmasını (fazalaşdırılmasını) və hər bir kadrın bir-biri ilə riyazi dəqiqliklə sinxronlaşdırılmasını tələb edirdi (Azərbaycan animasiyası tarixi, 2024).

Bu böhranı və yaradıcılıq boşluğunu qısa zamanda aradan qaldırmaq məqsədilə, kinostudiyanın rəhbərliyi tərəfindən istedadlı və gənc rəssam Ağanağı Axundov Moskvaya, SSRİ-nin ən nəhəng, qabaqcıl animasiya mərkəzi sayılan “Soyuzmultfilm” studiyasına ezam olundu (Nəcəfov, 2010). Moskva mühiti A.Axundov üçün əsl təcrübə məktəbinə çevrildi. O, burada sovet animasiyasının korifeylərindən multiplikasiya sənətinin ən incə bədii sirlərini, personajların psixoloji vəziyyətlərinə uyğun xarakterik hərəkət dinamikasını, ssenarinin vizual lövhələrə (rəsm layihələrinə) köçürülməsi metodlarını və sellüloid üzərində faza rəsmlərinin çəkilməsinin mürəkkəb texnoloji prinsiplərini dərindən mənimsədi (Amerika irsi lüğəti, 2012).

Bakıya qayıtdıqdan sonra Ağanağı Axundov Moskvada qazandığı zəngin nəzəri və praktik təcrübəni dərhal yerli yaradıcılıq mühitinə adaptasiya etməyə başladı. O, animasiyanın yalnız rəsmdən ibarət olmadığını, onun arxasında böyük bir kinematik mexanizmin dayandığını yaxşı anlayırdı. Bu məqsədlə “Azərbaycanfilm” kinostudiyasının nəzdində respublikada ilk dəfə olaraq rəssam-multiplikatorlar hazırlayan xüsusi ixtisaslaşdırılmış kurslar təşkil etdi. A.Axundov animasiyaya, qrafikaya və cizgi sənətinə xüsusi marağı olan gənc rəssamları, memarları və bədii təfəkkürlü gəncləri bu kursların ətrafında topladı (Quliyev, 2018).

Onlara hərəkətin anatomiyasını, kadrın ritmini və səs-cizgi sinxronizasiyasını sıfırdan öyrədən rəssam, qısa müddət ərzində həm texniki baxımdan savadlı, həm də bədii cəhətdən həvəsli, çevik bir komanda formalaşdırmağa nail oldu. Məhz bu daxili kursların yetirmələri və formalaşan yeni kadr potensialı yerli animasiya sexinin fəaliyyətini tam gücü ilə canlandırdı və respublikada müstəqil animasiya məktəbinin bünövrəsini qoyaraq yaxınlaşmaqda olan tarixi filmlərin çəkilişi üçün etibarlı zəmin yaratdı (Hüseynova, 2020).

Görülən işlərin nəticəsində komanda milli folklora müraciət etmək qərarına gəldi. Azərbaycan xalq nağıllarının ən sevilən qəhrəmanlarından biri olan Cırtdanın süjeti əsasında yeni bir cizgi filminin ssenarisi hazırlandı. Çəkilişlərinə böyük entuziazmla başlanılan və rəssam-multiplikatorların gərgin əməyi sayəsində ərsəyə gələn "Cırtdan" animasiya filminin istehsalı 1969-cu il fevral ayının 28-də tamamilə başa çatdırıldı. Ekran əsərinin quruluşçu rejissorları kimi Yalçın Əfəndiyev və Ağanağı Axundov (eyni zamanda, filmin quruluşçu rəssamı) çıxış edirdilər. Filmin musiqisini isə görkəmli bəstəkar bəstələmişdi (Barthes, 2015).

"Cırtdan" filmi klassik nağıl elementlərini müasir fantaziya formalarının bütövlüyü və süjetin yüksək dinamikliyi ilə birləşdirərək qısa müddətdə böyük tamaşaçı rəğbəti qazandı. Kadrlardakı rənglərin harmoniyası, personajların milli koloritə uyğun geyim və hərəkət tərzi Azərbaycan cizgi filminin vizual estetik xəttini müəyyən etdi. Ən əsası isə, "Cırtdan" layihəsi "Azərbaycanfilm" kinostudiyasında animasiya istehsalının rəsmən bərpasından sonra lentə alınmış ilk rəngli və tammetrajlı (qısametrajlı xronometrajda) cizgi filmi olaraq tarixə keçdi və sonrakı onilliklərdə yaranacaq digər şedevrlər üçün etibarlı bir fundamental baza rolunu oynadı (Quliyev, 2018).

Son zamanlarda animasiya kinoları festivallarda rejissor Firəngiz Qurbanovanın "Araqçın" filmi paytaxt şəhərdə 2021-ci ilin, 3-7 sentyabrında canlı şəkildə aparılan IV ANİMAFİM Beynəlxalq Animasiya Festivalında "Ən çox bəyənilən Azərbaycan qısa süjetli animasiya filmi" müsabiqəsində qalib gəlmiş və xüsusi medala layiq görülmüşdür. Film Braziliyada aparılan "Festival Anim! Arte"də ən çox bəyəni əldə edən filmlər sırasına daxil olmuşdur. Braziliyanın paytaxtı Rio-Janeyroda aparılan XVI Beynəlxalq tələbələr və mütəxəssislərin animasiya filmləri festivalının "World Cultures Professional" bölməsinin mükafatçısı olmuşdur (Həsənov, 2015).

2020-ci ilin 4-18 oktyabr tarixlərində Bakıda qlobal pandemiya şərtlərinə uyğun olaraq onlayn formatda təşkil edilən III ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı, yerli rejissorların və gənc istedadların öz əsərlərini nümayiş etdirməsi üçün böyük imkanlar yaratmışdır (Hüseynbəyli, 2022). Festivalın rəqabət mühitində Fidan Axundovanın rejissoru olduğu "Quzğun" filmi bədii estetikası və dərin fəlsəfi süjeti ilə seçilərək yerli müsabiqə proqramında "Ən yaxşı qısa süjetli animasiya filmi" mükafatına layiq görülmüşdür.

Festival gənc nəslin və tələbələrin yaradıcılıq potensialını üzə çıxarmaq baxımından da mühüm missiyanı yerinə yetirmişdir. Belə ki, həmin il "Ən yaxşı tələbə qısa süjetli Azərbaycan animasiya filmi" nominasiyası üzrə iki uğurlu layihə — Sevinc Quliyevanın vizual həlli ilə diqqət çəkən "Qar kürəsi" filmi və Ayaz Xalıqovun milli folklor motivlərinə söykənən "İlan və kəndli" filmi qalib elan olunaraq gənc multiplikatorların gələcək fəaliyyətinə güclü stimul vermişdir (Ağamalıyev, 2018).

## Müzakirə və Nəticə

Aparılan araşdırma göstərir ki, Azərbaycanda animasiya sənətinin yaranması və inkişafı milli kino tarixinin vacib və çoxşaxəli mərhələlərindən biridir. XX əsrin müxtəlif dövrlərində texniki və bədii animasiya imkanlarının genişlənməsi, yaradıcı kadrların formalaşması və studiya sisteminin inkişafı bu sahənin peşəkar səviyyəyə yüksəlməsinə şərait yaratmışdır. Xüsusilə folklor motivlərinin, milli dəyərlərin və maarifləndirici mövzuların animasiya dilinə gətirilməsi onun ideya-bədii zənginliyini artırmışdır.

Tövsiyələr və gələcək tədqiqat istiqamətləri:
1. Animasiya kadrlarının hazırlanması üçün ixtisaslaşmış tədris proqramlarının genişləndirilməsi;
2. Milli animasiya studiyalarının maddi-texniki bazasının təkmilləşdirilməsi;
3. Beynəlxalq animasiya festivallarında iştirakın və əməkdaşlığın artırılması;
4. Milli folklor və mədəni irsə əsaslanan animasiya layihələrinin təşviqi.

**Ədəbiyyat**


1. Amerika İrsi Lüğəti. (2012). *1960-cı illər*. DELL.
2. Ağamalıyev, R. (2018). *Azərbaycan animasiyası*. Elm və Təhsil Nəşriyyatı.
3. Aleksandrova, A.Yu. (2002). *Beynəlxalq turizm*.
4. Azərbaycan animasiyası tarixi. (2024). *Azərbaycanfilm kinostudiyasının arxivi*.
5. Barthes, R. (2015). *Mifologiyalar*. Qanun Nəşriyyatı.
6. Filimonova, İ.Yu. (2011). *Beynəlxalq turizmin təşkili*. Orenburq Dövlət Universiteti.
7. Həsənov, A.M. (2015). Azərbaycan animasiya sənətinin tarixi inkişaf mərhələləri. Elm və Təhsil Nəşriyyatı.
8. Hüseynova, S. (2020). *Müasir Azərbaycan ədəbiyyatında folklor motivləri*. BDU Nəşriyyatı.
9. Hüseynbəyli, E. (2022). Azərbaycan 3D animasiyasının inkişafı. *Mədəniyyət və incəsənət, 2*, 44–56.
10. Quliyev, R.A. (2018). *Milli kino və animasiya sənətində bədii ifadə vasitələri*. Qanun Nəşriyyatı.
11. Nəcəfov, Ə. (2010). *Azərbaycan mifologiyası*. Çaşıoğlu Nəşriyyatı.
12. Ravkin, R. (1989). *Turizmdə animasiya*. Zalozba, Lyublyana – Zaqreb.